**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

## Vergi müqavilələri

***(2 kredit (AKTS))***

### *Müəllim haqqında məlumat*


***Müəllim: i.e.d., prof. Saleh Məmmədov***
**Kafedra**: Maliyyə və İqtisadi nəzəriyyə kafedrası, İqtisadiiyat korpusu, 1-ci mərtəbə.
**İş nömrəsi:**
**Mob**: 0502108156
**İş saatları:**
**E-mail: samammadov@beu.edu.az**


Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir, müəllimlə tələbə arasında sərti müqavilədir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və fikirini bildirməli və qəbul olunduqdan sonra semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

Koronovirus pandemiyası səbəbindən bütün dərslər praktik olaraq onlayn Microsoft Teams platforması vasitəsi ilə keçiriləcəkdir.

### *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda onlayn “Microsoft Teams” platforması vasitəsi ilə keçiriləcək:

1-ci gün,17:00-18:20 (nəzəriyyə)
və (seminar)

***Fənnin təsviri***

" Vergi müqavilələri" kursunun məqsədi rəqəmsal keçid şəraitində vergiqoymada istifadə olunan müqavilələr kompleksi, o cümlədən beynəlxalq ikili vergi müqavilələri, karbohirdogen resurslarının işlənməsi üzrə vergi müqavilə və protokolları, onların ümumi prinsipləri, elmi-metodoloji əsasları haqqında dərin biliklər kompleksinin formalaşdırılması, eləcə də gələcək vergi meneceriinin peşəkar elmi-texnoloji düşüncə və mühəndislik (maliyyə) psixologiyasının yaradılmasıdır. Müasir elmi-texnoloji inkişaf rə rəqəmsal keçid mütəxəssisdən fərdi və qrup səviyyəsində sosial hadisələrin obyektiv və subyektiv amillərinin nəzərə alınmasını tələb edir. Bu fənn, dövlətin yaşam mənbəyi olan vergilərin toplanmasını, rasional idarəetmə modellərini, maliyyə mühəndisliyi elementləri ilə işləmək prinsiplərini və üsullarını, vergilərin toplanması zamanı yanaşma sistemini daha çox subyektiv insan təsirindən daha çox ayırmaqla süni intelektə əsaslanaraq effektiv metod və yanaşmaları necə idarə etməyi öyrənir.

Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:

Vergi müqavilərlərinin hazırlanma, imzalanması və işləmə prinsiplərini öyrənmək.

- Vergilərin müasir rəqəmsal keçid və texnoloji inkişaf prinsiplərinə uyğun prinsip və yığım üsullarını qurmaq;
- Dövlətin strategiyasına uyğun olaraq ölkənin finansallaşdırma indeksinin qaldırılması məqsədilə operativ tədbirlər kompleksinin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;
- Vergiqoymanın rəqəmsal sisteminin mənimsənilməsi və BTP proqramının tam öyrənilməsi;
- Süni intelekt və maşın lörninq vasitəsi ilə vergiqoymanın tam avtomatlaşdırılması prosesinin öyrənilməsi ;
- İdarəetmə qərarlarının qəbul edilməsinə təsir edən amillərin ağıllı (smart) vasitələrlə, xüsusilə neyronet şəbəkəsi, data sayəns proqramları ilə dərk edilməsi;
- Vergiqoymada ümüumdünya rəqəmsal vergi menecment sisteminin qurulması şərtlərinin müəyən olunması

***Planlaşdırlan təlim nəticələri***

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:
• Problemli vəziyyətin müəyyənləşdirilməsi və ciddi təkliflər hazırlanması;
• Süni intelekt proqramları vasitəsi ilə gələcək inkişaf optimal vergiqoyma siyasətinin formalaşdırılması;
• Peşəkar fəaliyyətin rəqəmsal prioritetlərinin müəyyənləşdirilməsi;
• Qeyri-müəyyənlik və risk şərtləri daxil olmaqla idarəetmə qərarlarının müəyyən edilməsi soft proqramların qurulması və effektiv şəkildə icra edilməsi;
• Beynəlxalq vergiləndirmə sistemində rəqəmsal idarəçilik qabiliyyətinə yiyələnmək, ölkənin maraqlarını təmin edə biləcək beynəlxalq vergiləndirmə sistemini qurmaq və offşor vergi sistemini ölkə iqtisadiyyatına tətbiq etmək ;
• İnvestisiya və maliyyələşdirmə barədə qərar qəbul edərkən də daxil olmaqla idarəetmə qərarları vermək üçün bazarı və xüsusi riskləri təhlil etmək;

• Sahibkarlıq fəaliyyətini həyata keçirən iqtisadi və sosial şərtlərin qiymətləndirilməsi, vergiqoyma vasitəsilə vergilərin biznesin stimullaşdırılmasına təsir imkanlarının müəyyənləşdirilməsi.

*Fənn üçün 30 saat (kedit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftədə iki saat mühazirə və ya iki saatlıq seminar var.*

## *Fənnin tematik təqvimi*

| **Həftə** | **Mövzu** | **Nəzəriyyə** | **Seminar** |
|---|---|---|---|
| Həftə 1, 2. | Mövzu 1. Rəqəmsal keçid şəraitində vergi müqavilələrinin rolu: Nəsrəddin Tusi və Adam Smit tərifi | 2 | |
| Həftə 3, 4 | Mövzu 2. Vergi müqavilələri və protokolları | 2 | 2 |
| Həftə 5, 6 | Mövzu 3. Vergi rejimləri. Məcəllə və Vergi protokolları | 2 | 2 |
| Həftə 7, 8 | İstehsal vergiləri və yaradıcı cəmiyyətin formalaşması | 2 | 2 |
| Həftə 9, 10 | İstehlak vergiləri və məhdudiyyət üsulları | 2 | 2 |
| Həftə 11, 12 | İkili vergi müqavilələri: 55 ölkə ilə | 2 | 2 |
| Həftə 13, 14 | Finansal data sayəns vergitutmada | 2 | 2 |
| Həftə 15 | Karbohidrogen resursları üzrə vergi protokolları | 2 | 2 |
| | **Cəmi saat** | **16** | **14** |

## *Mühazirənin quruluşu*

Nəzəri müzakirə müddəti 80 dəqiqə onlayn olaraq planlaşdırılır. Müzakirələr problem xarakterlidir, muasir problemlər və həll üsulları təhlil olunur. Mühazirələrdə əvvəlcədən hazırlaşmaq şərtilə tələbələr iştirak edirlər. prezentasiya materialları əvvəlcədən tələbələrə çatdırılır. Hər qrup üçün Votsappda ayrıca qrup yaradılır və 7/24 saat təmas təmin edilir. Bütün dərslər videoya çəkilir və dərs olan günü universitetin saytında,

həmçinin Universitetin icazəsi ilə sosial şəbəkələrdə - youtube, Facebook və s. yerləşdirilir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından, yaxud sosial şəbəkələrdən əldə edilə bilər.
Müzakirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu Microsoft Teams vasitəsilə hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və / və ya aydınlaşdırmasını tələb edə bilər, mühazirədə aktiv iştirak edə bilər, öz istəklərinə uyğun olaraq mühazirəçi kimi çıxış edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 75% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## *Seminar*

Seminar mövzuları, seminarların xüsusi aparılması qaydası və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. İlk seminarda tələbələrin ümumi bilikləri və hazırlıq səviyyəsi təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir.
Hər bir seminar tələbələrlə razılaşdırılaraq müxtəlif formada qurulacaqdır: Nazirlik kollegiyası, direktorlar şurasının iclası, problem üzrə dissertasiya müdafiəsi, komandalara bölünməklə qarşılıqlı müzakirə, Vergi orqanlarının ümumi iclası, Vergi qurumlarının beynəlxalq görüşü, Ofşor şirkətlərin toplantısı, elmi konfrans, işgüzar oyunlar və s.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-30 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır.

***Tələbələr üçün tövsiyələr:*** *Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər. Elmlə yanaşı nitq mədəniyyətinin təkmilləşdirilməsinə çalışmalıdır. Qiymətləndirmədə bu amil də nəzərə alınacaq.*

## *Sərbəst işlər*

Fərdi tapşırıqlar fərdi formatda əvvəlcədən müəllim tərəfindən tələbələrə verilən mövzular əsasında fərdi qaydada aparılacaqdır. Problem prezentasiyası formasında 20—50 slaydda Pover point proqramında hazırlanaraq müdafiə olunacaq və slideshare.net saytında dərs vəsaiti kimi yerləşdiriləcəkdir. Sərbəst işlər tələbənin qoyulan problemin həlli istiqamətində elmi tədqiqat işi kimi formalaşmalı, ciddi təkliflər və nəticə kimi rəsmiləşdirilməlidir. Sərbəst işlərin müdafiəsi mühazirə kimi təqdim edilə bilər və daha yüksək qiymətləndiriləcək.

## *İmtahan*

İmtahan şifahi hər bilet beş sual olmaqla çəkilən bilet əsasında aparılacaqdır. Hər sual maksimum 10 bal olmaqla maksimum bal sayı 50 bal ola bilər. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə tələbə razılaşmadığı halda, bu məqsədlə Universitet tərəfindən yaradılan Apelyasiya komissiyası şikayət edə bilər. Apelyasiya komissiyasının qəbul etdiyi qərar keçərli olacaqdır.

## *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar | 10 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

## *Tövsiyə olunan ədəbiyyat*

**Əsas**

1. Məhərrəm Hüseynov, Vergi və vegitutma, Bakı, 2016
2. Saleh Məmmədov, Rəqəmsal keçid və elmi texnoloji inkişafın sürətləndirilməsi. Bakı, 2021.
3. Saleh Məmmədov, Maliyyə, Bakı, 2021.
4. Maliyyə, dərslik, S. Məmmədov və M. Sadıqov. Gəncə, ADAU, 2010
5. Taxation of business entites/ Smith/Raabe/Maloney. Thomson, South Vestern. 2008
6. Macroeconomics of taxation. http://www.ier.hitu.ac.jp/~kitamura/lecture/contentsKeio_2.html
7. Taxation and investment in Azerbaijan. Baku 2020, https://www2.deloitte.com/content/dam/Deloitte/tr/Documents/tax/taxation-and-investment-in-azerbaijan-2015-deloitte.pdf
8. Tax guide 2020/ Foreign natonals coming to Azerbaijan. Baku 2020 https://www2.deloitte.com/content/dam/Deloitte/az/Documents/tax/Tax%20guide%2020 20%20Foreign%20nationals%20coming%20to%20Azerbaijan.pdf
9. Tax Code of Azerbaijan Republic;
10. PSA razılaşmaları üzrə vergi protokolları (Azeri-Chirag-Guneshli və 24 başqa müqavilələr) və HGA (Bakı Ceyhan və TANAP).

***Additional literature:***

1. Azərbaycan Respublikasının Mülki məcəlləsi;
2. Azərbaycan Respublikasının Əmək məcəlləsi;
3. Nazirlər Kabinetinin qərər və sərəncamları;
4. Certain Articles of OECD Tax Model Conventions, 2017.

## ***Əlavə resurslar***

1. http://www.economy.gov.az
2. http://maliyye.gov.az/
3. https://www.taxes.gov.az
4. https://www.e-taxes.gov.az/